# Hər gecə yuxuma bir şəhid gəlir...

Məmmədzadə Cahan Saleh oğlu 24.08.1994-cü ildə İsmayıllı rayon Təzəkənd kəndində anadan olub. 2000-ci ildə İsmayıllı rayon Təzəkənd kəndi şəhid Mirzağa Əzimov adına tam orta məktəbin birinci sinfinə daxil olub. 2011-ci ildə həmin məktəbin XI sinfini bitirib. 2012-ci il aprel ayından 2 iyunadək İsmayıllı rayon Məşğulluq Mərkəzinin göndərişi ilə Göyçay Regional Peşə-Tədris Mərkəzində ofisiant kursunu oxuyub. 2012-ci il oktyabr ayının 9-da Qazax rayonunun «N» saylı hərbi hissəsində xidmətə başlamış, 2014-cü il aprel ayının 2-si hərbi xidməti başa vurmuşdu. 2014-cü ilin noyabr ayından 2015-ci ilin 21 yanvarınadək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində «motoatıcı tağım komandirinin müavini» kursunu bitirmişdi. Bakı şəhəri Müşfiqabad qəsəbəsində yerləşən «N» saylı hərbi hissəsində xidmət etmişdi. Daha sonra Qazax rayon «N» saylı hərbi hissəsinin Quşçuayrım kəndində vəzifəsini yerinə yetirmişdi. 2016-cı il dekabr ayının 7-dən Gədəbəy rayon Novosaratovka qəsəbəsində yerləşən «N» saylı hərbi hissədə xidmətini davam etdirib və sonra isə Gədəbəyin adsız yüksəkliklərində xidmət edib. Müharibəyə getdiyi zaman Cahanın olduğu yer arxa cəbhə idi. Cahan ön cəbhəyə könüllü olaraq qatılıb. 24 oktyabrda döyüşlərə qatılmaq üçün müharibə bölgəsinə gedib. Şuşa uğrunda gedən döyüşlərdə xüsusi təyinatlı qüvvələrlə çiyin-çiyinə döyüşüb. Ən son danışığında «Şuşaya 5 km. yol qalıb. Şuşanı azad edib qayıdacam» - demişdi. Amma o, şəhid olaraq qayıtdı. Yoldaşlarının dediyinə görə üzərlərinə gələn düşmən tankını məhv edərkən uzaqdan snayperlə boynundan vurulmuşdu.

Cahan «Gizir» rütbəsini daşıyırdı. O, qazaxda hərbidə işlədiyi dövrdə evlərinə məzuniyyətə gəlmişdi. Aprel döyüşləri zamanı anasına deyib ki, mən müharibəyə gedəcəm. Anası İlhamə xanım deyib: «Getmə». Şəhidimiz isə anasına belə deyib: «Hansı şəhidin



anasından artıqsan, yaxud mən hansı şəhiddən artığam?». Bu sözləri dedikdən sonra Cahan müharibəyə gedib, Aprel döyüşlərinin iştirakçısı olub. Anasının dediyinə görə, Aprel döyüşlərindən əvvəl Qazax istiqamətində Lənkəran sakini tağım komandiri leytenant Qalib Zülfüqarlı yaralı vəziyyətdə Cahanın qucağında can verərkən Cahana deyib: «Komandir, nə olar qoyma mən ölüm». Elə həmin an da o dünyasını dəyişib, şəhadətə qovuşub. Qalib nişanlı imiş. Can verən zaman çoxlu qan itirdiyindən onu qurtarmaq mümkün olmayıb.

Cahanın çoxlu yaddaşlarda qalan xatirələri var. İlhamə ananın dediklərindən: «Cahan zarafatcıl oğlan idi. Deyib-gülən, şən və mehriban biri idi. Hərdən çılğınlığı da vardı. Küsüb barışmağı bacarırdı. Hər şeyin yerini bilən, böyüklərə böyük kimi, kiçiklərə kiçik kimi hörmət edən, ağıllı və düşüncəli bir uşaq idi. Orta məktəb illərində müəllim və şagird kollektivinin rəğbətini qazanmışdı. Məktəbdə oxuduğu vaxtlarda Cahan özünü bayrağa bükübmüş. Elə bil hiss etmişdi ki, şəhid olacaq. Orta məktəbin dil-ədəbiyyat müəllimi Ələkbərova Mənsurə Cahana yazdığı şeirlən iki bəndini təqdim edirəm:

*Qara gözlər yaşla dolur,*
*Həsrətindən hər gün solur.*
*Hicran bizi yaman yorur,*
*Qayıt geri, üzmə bizi, ay Cahan!*

*Hər gün qüssə, qəm və kədər,*
*İnsan nə qədər səbr edər?*
*Bu qədər ayrılıq yetər,*
*Qayıt geri, üzmə bizi, ay Cahan!..*

Cahan çox vətənpərvər bir insan idi. Heç vaxt döyüşlərdən kənar qalmayıb. Döyüş zamanı İsmayıllı rayon Təzəkənd kəndində onun yaxın bir dostu vardı. Cahan onunla yazışardı. Elə hey deyərdi: «Nə vuruşanlardan, nə də şəhidlərdən biz artıq deyilik. Şəhidlik hər adama nəsib olmayır. Allah bizə bütün şəhidlərimizin qisasını almağı nəsib etsin, inşallah!

Döyüş zamanı Cahan facebook səhifəsində göz yaşardan, ürək ağrıdan bir şeir yazıbmış:

*Dostlarım, mən ölsəm məzar daşımı,*
*Sadə seçin, ruhum fərəhlənməsin.*
*Cavan getsəm artıq yazın yaşımı,*
*Baxanlar kövrəlib, kədərlənməsin.*

*Qoymazsız qəbrimə gül dəstə-dəstə,*
*Çətin hiss edərəm çiçək qoxusun.*
*Sadəcə bir mömin məzarım üstə,*
*Deyərsiz hər cümə «Quran» oxusun.*

*Yazmazlar daş üstə mənim ismimi,*
*Sanki heç dünyaya gəlməmişəm mən.*
*Çəkməzlər gözləri qəmli rəsmimi,*
*Görənlər bilməsin gülməmişəm mən.*

Bundan başqa Cahanın Ziya Fədai adlı bir dostu facebook səhifəsində şeir yazıb paylaşıb:

*Hər gecə yuxuma bir şəhid gəlir,*
*Döyür gözlərimin bağlı qapısın.*
*Nə qədər istəsəm aça bilmirəm,*
*Gözlər onu görsün, onu tanısın.*

*Hər gecə yuxuma bir şəhid gəlir,*
*Dərdləşir mənimlə pərdə arxası.*
*Gözümün içində mənim dünyamdı,*
*Gözümün çölündə onun dünyası.*

*Hər gecə yuxuma bir şəhid gəlir,*
*Cənnət nemətilə dolu çantası.*
*Bunu evimizə yetir söyləyir,*
*Onsuz axı acdır yurdu, yuvası.*

*Hər gecə yuxuma bir şəhid gəlir,*
*Elə hey «nə üçün?», «niyə?» söyləyir.*
*Onsuz soyuduqca isti yuvası,*
*Onun yaraları yanıb göynəyir.*

Cahan evin tək oğul övladı idi. O nişanlı idi. Toya hazırlaşırdı. Lakin zalım fələk aman vermədi Cahana. Cahanın bəylik otağı bəzəkli qaldı. Gəlin gətirmək ona nəsib olmadı. O, 22 oktyabr 2020-ci il tarixdə Gədəbəy rayonu «N» saylı hərbi hissəsindən könüllü olaraq döyüşlərə qoşuldu. Şuşaya ilk girənlərdən biri olub. Düşmən tankının qarşısına təkbaşına çıxıb. İsmayıllı rayonunun Təzəkənd kəndində dünyaya göz açan Cahan Saleh oğlu Məmmədzadə erməni daşnaklarına qarşı döyüşlərin birində Şuşa şəhərinin işğaldan azad olunması zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 12-si yaşadığı İsmayıllı rayonunun Təzəkənd kəndinə gətirilərək, öz doğma kəndində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Cahan Saleh oğlu Məmmədzadə ölümündən sonra «Vətən uğrunda», «Şuşanın alınmasına görə» və «Hərbi xidmətlərə görə» medalları ilə təltif olunmuşdur.

Şəhidlər heç vaxt və heç bir zaman ölməyir. Onlar əbədi olaraq hamının qəlbində əziz xatirətək yaşayan unudulmaz qəhrəmanlardır.

**Vəsidə Mustafaqızı**